# Qarabağın azad edilməsi Türk dünyasının tarixi uğurudur



**İkinci ildönümünü qeyd etdiyimiz tarixi qələbə ilə Azərbaycan qalib dövlət statusunu dünyaya sübut etdi. Xalqımızın 30 illik torpaq həsrətinə son qoyuldu. Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, beynəlxalq aləmdə və döyüş meydanında göstərdiyi məharət və qətiyyəti tarixi ədaləti bərpa etdi. İndi o günlərdən uzaqlaşdıqca qazanılmış Qələbənin tarixi önəmi və möhtəşəmliyi daha aydın görünür.**

Tarixi savaş günlərində Azərbaycanın yanında olmuş, mənəvi-siyasi dəstəyi ilə qələbəyə layiqli töhfə vermiş qardaş Türkiyədə də ötən 2 ildə ölkəmizin zəfəri eyni sevinc və təntənə ilə yaşanır. Anadolunun müxtəlif bölgələrində yaşayan dostlarımızın və həmkarlarımızın qəzetimizə açıqlamaları da bunu sübut edir:

**Mehmet Cihat ÖZGENEL (Ərzincan):**



– Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı nəticəsində Azərbaycan xalqı 44 gün ərzində ərazi bütövlüyünü bərpa etdi. Bütün türk dünyasının qəlbində yüksək qürur hissləri yaradan şanlı qələbə türk dünyasında milli oyanışa, yeni bir dirçəlişə və birliyə səbəb oldu. Bu gün qürurla deyirik ki, Qarabağ zəfəri bütün Türk dünyasını canlandırdı. Bir ay əvvəl – oktyabrda Türkiyənin Ərzincan şəhərində keçirilən Beynəlxalq Türk Dünyası Simpoziumu bunun təsdiqi oldu.

Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın himayəsi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı və Ərzincan Binəli Yıldırım Universitetinin evsahibliyi ilə keçirilən simpozium həm əhatə dairəsinə, həm də siyasi çəkisinə görə türk birlik tariximizin yeni səhifəsi idi. Bu məclisdə Azərbaycanın Qarabağ qələbəsi türk dünyasının tarixi uğuru kimi dəyərləndirildi.

Türkiyə–Azərbaycan birliyinin təsdiqi olan bu qələbə bir daha sübut etdi ki, dünyanın qədim və böyük xalqlarından olan türk milləti birliyə nail olarsa, bu gün ağır günlər yaşayan bəşəriyyətin qlobal problemlərinin həllinə fayda verə bilər. Azərbaycanlı qardaşlarımızı təbrik edir, böyük türk dünyasının önəmli bir hissəsi olan Azərbaycan dövlətinə və xalqına yeni uğurlar arzu edirəm.

**Əmirulla MƏMMƏDOV (Ankara):**



– Bu Zəfər Türk dünyasının tarixində önəmli yeri olan tarixi hadisədir. Müstəqillik tariximizin ən şərəfli günlərini yaşayırıq. Tarixi Qələbədən – 44 günlük müharibədən sonra xalqımızın və Ali Baş Komandan, möhtərəm Prezident İlham Əliyevin nələrə qadir olduğunu bir-iki cümlə ilə ifadə etmək çətindir. 30 il işğalda olan torpaqların azad edilməsi, Azərbaycan və Türkiyənin böyük güclər önündə dəyanəti digər türk dövlətlərində də böyük inam yaratdı, türk birliyini daha da möhkəmlətdi.

Hazırda işğaldan azad edilmiş bölgələrdə aparılan hərtərəfli quruculuq işlərinin miqyası o qədər böyükdür ki, onlar beynəlxalq və regional layihələr sırasına aid edilir. Az bir zamanda Füzulidə, daha sonra Zəngilanda beynəlxalq hava limanlarının təntənəli açılışı bu işlərin böyük miqyasının təsdiqidir. Bu layihələr bölgə ölkələri və türkdilli dövlətlər arasında bağlılığın möhkəmlənməsində əvəzsiz rol oynayacaqdır. Azərbaycanın əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında quru əlaqəsinin qurulması region ölkələrinin də faydalandığı nəqliyyat marşrutudur. Heç şübhə etmirəm ki, Zəngəzur dəhlizinin açılması bu bağlılığın inkişafında yeni uğur olacaq və regional əməkdaşlığı, sabitliyi möhkəmləndirəcəkdir.

**Sərxan AKSUYEK (İzmir):**

– Azərbaycanın bugünkü uğurlarını 2020-ci ilin noyabrında qazanılan Qarabağ Qələbəsindən kənarda görmək mümkün deyil. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindən sonra 30 illik işğala son qoyuldu və Türkiyə ilə Azərbaycanı, eləcə də türk dünyasını birləşdirən Zəngəzur dəhlizi gündəmə gəldi. Bu yol vaxtilə Azərbaycan torpaqları olan indiki Ermənistanın ərazisindən keçir.

Amma təəssüf ki, Ermənistanın Fransa, İran kimi havadarlarının dəstəyi ilə dəhlizin açılışı ləngidilir. Amma bu böyük məramın qarşısını almaq mümkün olmayacaq, bu məsələ indi bütün dünyanın diqqətindədir. Türkiyə və dünya KİV-ində davamlı müzakirə mövzusudur. Türkiyə bütün müstəvilərdə açıq bir şəkildə bəyan edir ki, hər zaman qardaş Azərbaycanın ya-



nındadır. Sadəcə, Ermənistan anlamalıdır ki, sülh müqaviləsinin bağlanması üçün danışıqlara başlamaq lazımdır. Azərbaycan Prezidentinin qürurla dediyi kimi Qarabağ Azərbaycandır! Qələbəmiz mübarək!..

**Əli ƏSKƏR (Karabuk):**

– Tarixi qələbə Azərbaycanı dünya çapında yenidən tanıtdı. 30 illik işğala son qoyulması Cənubi Qafqazda sülhün müjdəsi idi. Amma təəssüf ki, bunu qəbul etməyənlər, Fransa dövləti kimi Ermənistanın təcavüzkar siyasətinə havadarlıq edənlər var. Niyə Fransa, çünki Fransanın vaxtı ilə Əlcəzairdə apardığı siyasət o qədər qəddar olub ki, bunu ancaq Ermənistanın Azərbaycana qarşı yürütdüyü siyasətlə müqayisə etmək olar. Tarixdən də məlumdur ki, azadlıq istəyən əlcəzairlilərə qarşı Fransa ordusunun qətliamları 1,5 milyondan artıq insanın qətli ilə yekunlaşdı, 10 milyona yaxın dinc əlcəzairli Fransanın müstəmləkə siyasətinin qurbanı oldu.

Qarabağda yaşayan, ermənin işğalına etiraz edən azərbaycanlılar da eyni taleyi yaşadılar. 1832-ci ildə Fransanın işğalına etiraz edən El-Uffia qəbiləsinin dinc əhalisi necə qanına qəltan edilmişdisə, 1992-ci ildə Xocalıda da silahsız insanlar gecə yarısı soyqırımına məruz qaldılar. Şükürlər olsun ki, bu gün Qarabağ azaddır, günahsız insanların da qanı yerdə qalmayıb. Həm Türkiyə, həm Azərbaycan dövləti və xalqlarımız sülh müqaviləsini gözləyir. Fransa, İran kimi havadarlar da bilməlidirlər



ki, yeni müharibə bir dövlət kimi Ermənistanın sonu deməkdir.

Bu deyilənlərə onu da əlavə edək ki, indi həyatımızın devizinə çevrilən Qələbə 44 günlük qəhrəmanlıq savaşımızının xalqımıza qazandırdığı ən böyük dəyərdir və uzun illər də qürur mənbəyimiz olaraq qalacaqdır. Xüsusən də tarixi qələbəmizin uğurları fonunda Türkiyə–Azərbaycan birliyi daha güclü, daha əzəmətli görünür.

***Namiq QƏDİMOĞLU, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 6 noyabr.- S.6.